Building a better working world

Fevral 2022

Vergi məsələləri üzrə yeniliklər

Azərbaycan Respublikasının qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi

Qanunvericilikdə baş vermiş dəyişikliklər

Hazırkı buraxılışda biz, aşağıdakılar ilə bağlı qanunvericilikdə baş vermiş dəyişikliklərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Sahibkarlıq sahəsində aparılan yoxlamalar 2023-cü il yanvarın 1-dək dayandırılıb
- İkiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı qaydalarına edilmiş dəyişikliklər
- İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliklər

Bizi izləyin:
ey.com/en_az/tax-messenger

Sahibkarlıq sahəsində aparılan yoxlamalar 2023-cü il yanvarın 1-dək dayandırılıb

9 fevral 2022-ci il tarixində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Qanun (bundan sonra "**Dəyişiklik**" adlandırılacaq) dərc edilib. Dəyişikliyə əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2023-cü il yanvarın 1-dək dayandırılıb.

Dəyişiklik 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı qaydalarına edilmiş dəyişikliklər

27 dekabr 2021-ci il tarixli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 21 nömrəli Qərarı ilə Azərbaycan Respublikası ilə digər dövlətlər arasında bağlanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin inzibatçılığı qaydalarına əlavə və dəyişikliklər (bundan sonra uyğun olaraq, "Dəyişiklik" adlandırılacaq) qəbul edilib.

Dəyişikliyə əsasən beynəlxalq müqavilənin tətbiqi ilə bağlı müraciətlərin vergi orqanlarına təqdim edilməsi və onlar tərəfindən baxılmasının ümumi qaydalarına aşağıdakılar əlavə olunmuşdur:

- DTA-02, DTA-03 və DTA-05 ərizə formalarına əlavə olunan təsdiqedici sənədlərin həqiqiliyini onları təqdim edən xarici dövlətin müvafiq qurumunun rəsmi internet səhifəsindən QR kod və (və ya) identifikasiya nömrəsi ilə yoxlamaq mümkün olduğu halda, həmin sənədlər bir başa olaraq (yəni, apostil və ya leqallaşdırma təqdim olunmadan) müraciətə əlavə oluna bilər;
- Yeni müraciət zamanı əvvəlcədən təqdim edilən və etibarlılıq müddəti bitməmiş və ləğv edilməmiş sənədlər yenidən təqdim olunmaya bilər;
- DTA-03 forması və əlavə olunan müvafiq qaydada təsdiqlənmiş sənədlər gəlirin ödənildiyi cari rüb bitənədək təqdim olunmalıdır;
- DTA-05 forması ilə bağlı müraciətlər istisna olmaqla, digər daxil olmuş müraciətlərə vergi orqanı tərəfindən 30 gün ərzində baxılır. Araşdırılması üçün vergi orqanının müraciətə baxılma müddətini hər dəfə 30 gün olmaqla iki dəfə uzatmaq hüququ var. Əlavə araşdırma üçün xarici şəxslərə, digər dövlətlərin səlahiyyətli orqanlarına və ölkə daxilində sorğu göndərildikdə, cavab daxil olunanadək müraciətin baxılması vaxtı dayandırılır;
- Artıq ödənilmiş (tutulmuş) vergi məbləğlərinin DTA-05 forması əsasında geri qaytarılması ilə bağlı müraciət vergi hesabatı dövrü bitdikdən sonrakı 5 il müddətindən gec olmayaraq təqdim oluna bilər;
- DTA-03 və DTA-05 müraciət formalarına əlavə olunacaq sənədlərin siyahısı genişləndirilmişdir və görülmüş işlərin təsviri, xidmətlərin göstərildiyi yer (ölkə), xarici və yerli işçilər cəlb olunduğu halda hər bir işçi üzrə ayrılıqda məlumatların (pasport və ya şəxsiyyəti təsdiq edən sənəd məlumatları)təqdim olunması tələb edilir.

  Dəyişikliyə əsasən DTA-03 və DTA-05 müraciət formalarına qeyri-rezidentin faktiki sahibliyini sübut etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:
- Qeyri-rezidentin gəlirlərdən istifadə etmək və (və ya) üzərində sərəncam vermək hüququnu təsdiq edən sənədlər (məs., təsisçilər və sonuncu benefisiar haqqında xarici dövlətin müvafiq orqanından alınan rəsmi təsdiqedici sənədlər və ya çıxarışlar, nizamnamə və s.);
- Üçüncü şəxslərin (Azərbaycan Respublikası ilə beynəlxalq müqavilə bağlamayan xarici ölkənin rezidenti) qarşısında, bu cür gəlirlərdən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə istifadə etmək və (və ya) idarə etmək hüquqlarını məhdudlaşdıran öhdəliklərin olmadığına dair sənədlər;
- Qeyri-rezidentin, vergi rezidenti olduğu dövlətdə sahibkarlıq və (və ya) digər fəaliyyəti həyata keçirdiyini təsdiq edən sənədlər (məs., maliyyə və vergi hesabatları, qeydiyyat şəhadətnaməsi və s.

İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliklər

27 yanvar 2022-ci il tarixində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (bundan sonra "Məcəllə" adlandırılacaq) dəyişikliklər edilməsi haqqında qanun (bundan sonra "Dəyişiklik" adlandırılacaq) dərc edilib.

İnzibati cərimənin şərti qaydada tətbiq edilməsinə dair dəyişiklik

Məcəllənin 192.6-cı maddəsində əks olunmuş "işçinin əmək müqaviləsinə əmək qanunvericiliyinin tələbləri pozularaq xitam verilməsi"nə görə inzibati cərimənin artıq şərti qaydada tətbiq edilməsi mümkün oldu. Belə ki, işəgötürən inzibati xətanın şərti olaraq tətbiq edilməsi haqqında qərarda müəyyən olunmuş müddət ərzində törədilmiş pozuntunu aradan qaldırarsa, cəriməni ödəməkdən azad ediləcək.

Bunun əksinə olaraq, kvota və göndərişlə işə qəbul edilən və işdən çıxarılan işçilər haqqında aylıq hesabatların təqdim edilməməsinə (540.1 -ci maddə), iş yerləri ilə bağlı müvafiq vakansiyaların elektron informasiya sistemində əmək haqqı göstərilməklə yerləşdirilməməsi (540.2-ci maddə) ilə bağlı inzibati cərimə isə artıq şərti qaydada tətbiq edilməyəcək. Bu, o deməkdir ki, pozuntu baş verdikdə onun aradan qaldırılması üçün müddət müəyyən edilməyəcək və cərimə ödənilməli olacaq.

Ezamiyyə xərclərinin və müavinətlərin hesablanması və ödənilməsi zamanı yol verilmiş pozuntular üçün inzibati məsuliyyət

Dəyişiklik ilə Məcəllənin 192.4-cü maddəsinin əhatə dairəsi genişləndi. Belə ki, əmək və məzuniyyət haqlardan savayı, artıq həm də ezamiyyə xərclərinin və qanunvericilikdə nəzərdə tutulmuş digər müavinətlərin hesablanmasında və ödənilməsində qanun pozuntularına yol verildikdə inzibati məsuliyyət yaranır.

Qeyd edək ki, bu xətalara görə vəzifəli şəxslər yeddi yüz manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

Əmək qanunvericiliyinin pozulması ilə əlaqədar inzibati xəta

Dəyişiklik ilə Məcəlləyə 539.1-1-ci maddəsi əlavə olundu. Maddəyə əsasən, AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin aşağıdakı məsələlərlə bağlı icrası məcburi olan qərarlarının və göstərişlərinin icra edilməməsinə görə vəzifəli şəxslər min, hüquqi şəxslər isə iki min manat məbləğində cərimə ediləcək:

- əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları;
- əmək şəraiti, iş və istirahət vaxtı, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi;
- qadınların və yaşı 18-dən az olan işçilərin əməyindən istifadənin xüsusiyyətləri ilə bağlı tələbləri.

Qeyd etmək lazımdır ki, yuxarıdakı 539.1-1-ci maddədə nəzərdə tutulan cərimə Məcəllənin 192-ci maddəsində müəyyən olunan məsuliyyət yaranmadıqda tətbiq olunacaq.

Əlaqə üçün:
Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:

Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com

Hidayət Əzimov
Hüquq xidmətlərinin rəhbəri
Tel: +994 (12) 490 7020
hidayat.azimov@az.ey.com

Səbinə Xəlilova
Baş menecer, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
sabina.khalilova@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti müştərilər, insanlar və bütün cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılması və kapital bazarlarına inamın artırılmasına töhfə verərək daha yaxşı iş dünyasını qurmağa çalışır.

EY şirkətinin dünyanın 150-dən çox ölkəsində müxtəlif sahələrdə çalışan komandaları informasiya və texnologiyanın istifadəsi ilə məlumatlara olan etibarı təmin edir və onların doğruluğunu təsdiqləyir, müştərilərin inkişafına, dəyişməsinə və uğurla fəaliyyət göstərməsinə kömək edir.

EY şirkətinin audit, konsaltinq, hüquq, vergi, strategiya və sövdələşmələr sahəsində çalısan mütəxəssisləri bu gün dünyanın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Global Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkətinin fərdi məlumatları necə toplaması və istifadə etməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

MDB şirkətləri ilə qarşılıqlı əməkdaşlıq aparan EY, onların öz işgüzar məqsədlərinə çatmasına kömək edir. Moskva, Yekaterinburq, Kazan, Novosibirsk, Rostov-Don, Sankt-Peterburq, Tolyatti, Vladivostok, Almatı, Atırau, Nur-Sultan, Bakı, Bişkek, Kiyev, Minsk, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 19 MDB ofisində 5,500 mütəxəssis çalışır.

© 2022-ci il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

ey.com/az